## İNCƏSƏNƏT

**UOT 792.03**
**https://doi.org/10.59849/2218-4783.2025.2.250**

**ƏLƏKBƏR QASIMOV**

# ÜZEYİR HƏYATININ VƏ OPERETTALARININ EKRAN TƏCƏSSÜMÜ

*Məqalədə Azərbaycan peşəkar musiqisinin banisi, dahi bəstəkar, dramaturq, musiqişünas, dirijor, publisist, pedaqoq, ictimai xadim, akademik Üzeyir bəy Hacıbəyovun ömür və yaradıcılıq yolunu əks etdirən filmlərdən, həmçinin dünyaşöhrətli operettaları əsasında çəkilmiş ekran əsərlərindən bəhs olunur.*

*Burada "Üzeyir ömrü" bədii-sənədli filmindən, onun yaradıcı heyətindən geniş söhbət açılır. Eləcə də dahi şəxsiyyətə həsr olunaraq müxtəlif illərdə lentə alınmış sənədli filmlər araşdırılaraq təqdim edilir.*

*Bundan başqa kinematoqrafçıların bir neçə dəfə müraciət etdikləri "Arşın malalan" operettasının ekran həyatı, həmin filmlərin quruluşçu rejissorları, quruluşçu operatorları, quruluşçu rəssamları, aktyorları, ariya və mahnıları ifa edən müğənnilər barədə ətraflı məlumat verilir.*

*Eyni zamanda "O olmasın, bu olsun!" filminin də çəkiliş prosesindən məqamlar və yaradıcı heyətin fəaliyyəti geniş işıqlandırılır.*

**Açar sözlər:** *Üzeyir bəy Hacıbəyov, musiqili kinokomediya, film, rejissor, operator, rəssam, aktyor, müğənni.*

**Giriş.** SSRİ xalq artisti, Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü (1945), professor (1940), SSRİ Dövlət mükafatları laureatı (1941; 1946), Azərbaycan Dövlət Konservatoriyasının rektoru (1928-1929; 1939-1948), Azərbaycan EA İncəsənət İnstitutunun direktoru (1945-1948), Azərbaycan Bəstəkarlar İttifaqının sədri (1938-1948), SSRİ Ali Sovetinin deputatı (1937; 1941) professional musiqimizin, o cümlədən milli opera və operettamızın banisi olan Üzeyir bəy Hacıbəyovun bu çoxşaxəli fəaliyyəti hər zaman bir sıra tədqiqatçıları, alimləri – musiqişünasları, teatrşünasları, ədəbiyyatşünasları, kinoşünasları, jurnalistləri özünə cəlb etmişdir. Bu mənada istər milli, istərsə də xarici kino sənətkarları da bu dərin və tükənməz irsə müraciət etmiş və ondan səmərəli şəkildə yararlanmışlar.

Ü.Hacıbəyov yalnız Azərbaycan xalqının deyil, bütün türk dünyasının böyük sənətkarı, eləcə də ümumbəşəri dahi şəxsiyyətdir. Bəstəkarlıq fəaliyyətinə 1908-ci ildə "Leyli və Məcnun" operası ilə başlamaqla, xalq əfsanələrindən qaynaqlanan bir sıra operalar da bəstələmişdir. "Koroğlu" istisna olmaqla, bütün opera və operettalarının libretto və mətnləri Üzeyir bəyi həm də bir dramaturq kimi şöhrətləndirmişdir.

Görkəmli bəstəkar, xalq artisti Tofiq Quliyev "Ər və arvad", "Arşın mal alan" və "O olmasın, bu olsun!" operettalarını 1920-ci ilə qədərki Azərbaycan həyatının güzgüsü adlandırmışdır. Bu operettalar XX əsrdə daim kinematoqrafçıların da diqqət mərkəzində olmuş və müxtəlif illərdə bir neçə dəfə ekranlaşdırılmışdır. Əsrin əvvəllərində "Arşın mal alan" və "O olmasın, bu olsun!" musiqili filmləri yaradılsa da, onlar uğur qazana bilməmişdir. XX əsrdə film olaraq "Arşın mal alan" üç, "O olmasın, bu olsun!" iki dəfə istehsal olunmuşdur. Bir dəfə isə ABŞ-da, ermənilər tərəfindən çəkilmiş və süjeti təhrif edilmiş "Arşın mal alan" filmində müəllifin – Üzeyir Hacıbəyovun ümumiyyətlə adı göstərilməmişdir.

**Üzeyir ömrü kinokadrlarda.** "Azərbaycanfilm" və "Azərbaycantelefilm" tərəfindən demək olar ki, ötən əsrin 30-90-cı illəri ərzində dahi bəstəkarımızın ömür və yaradıcılıq yolunu əks etdirən bir sıra sənədli kinofilm və televiziya filmləri ərsəyə gəlmişdir.

1938-ci ildə kinorejissor Nazim Bədəlov öz ssenarisi əsasında çəkdiyi "Azərbaycan aşıqları" adlı sənədli film Azərbaycan aşıqlarının I qurultayına həsr olunmuşdur. Filmdə bu qurultayın əsas

təşkilatçıları olan Üzeyir Hacıbəyov və müğənni Bülbül aşıq yaradıcılığı barədə maraqlı çıxışlar etmişlər. Burada hər iki sənətkar “Koroğlu” operasında aşıq mahnıları səslənən səhnələr və onların üzərində aparılmış gərgin yaradıcılıq prosesi haqqında danışaraq, həmin səhnələrdən ayrı-ayrı hissələri əyani nümayiş etdirmişlər.

1948-ci ildə Üzeyir bəyin dəfn mərasimi məxsusi çəkilişlə lentə alınsa da, ayrıca bir sənədli film kimi göstərilməmişdi. Böyük sənətkara həsr olunmuş ilk sənədli film isə 1976-cı ildə, “Azərbaycanfilm”də Kərim Kərimovun ssenarisi əsasında Xamis Muradovun lentə aldığı “Üzeyir Hacıbəyov” filmi olmuşdur. Bu filmdə dahi sənətkarın həyat və yaradıcılığı, əsərlərinin səhnə təcəssümü və ev-muzeyinin açılış mərasimi əks olunur.

Kinorejissor və operator Zaur Məhərrəmov böyük bəstəkara həsr olunmuş iki sənədli film ərsəyə gətirmişdir. Hər iki film Ü.Hacıbəyov Ev-Muzeyinin sifarişilə yaranmışdır. “Üzeyir Hacıbəyov” adlanan birinci film 1986-cı ildə, Kamil Vəliyevin ssenarisi əsasında çəkilmişdir. Burada ev-muzeyi və onun eksponatları, sənətkara məxsus olan əşyalar və qiymətli sənədlər barədə ətraflı məlumat verilir.

Ssenari müəllifləri Z.Məhərrəmov və R.Xəlilov olan, 1991-ci ildə çəkilmiş ikinci film “Sənsiz” adlanır. Burada Üzeyir bəyin son günləri və dəfn mərasimi öz əksini tapmışdır.

Nəhayət, 1981-ci ildə dahi şəxsiyyətin ömür yoluna və çoxşaxəli fəaliyyətinə həsr olunmuş ilk və hələ ki, yeganə bədii film çəkildi. Ssenari müəllifi və quruluşçu rejissoru Anar, quruluşçu operatoru Z.Məhərrəmov, quruluşçu rəssamı R.İsmayılov olan bu film sənədli kadrlarla da zəngin olduğuna görə bədii-sənədli üslubda çəkilmişdir. Azərbaycanın kino tarixində ilk dəfə olaraq məhz bu filmdə Üzeyir Hacıbəyovun obrazı ekranda görünür. Bu rolu görkəmli teatr rejissoru Hüseynağa Atakişiyev məharətlə və uğurla canlandıra bilmişdir. Üzeyir bəyin uşaqlıq rolunu isə Yalçın Əfəndiyev bacarıqla ifa etmişdir.

Bu filmdə Xurşid banu Natəvan (Nəcibə Məlikova), Cabbar Qaryağdıoğlu (Qədir Rüstəmov), Qurban Pirimov (Ramiz Quliyev), Həsən bəy Zərdabi (Əli Zeynalov), Əbdürrəhim bəy Haqverdiyev (Rüstəm Rüstəmzadə), Müslim Maqomayev (Məmməd Məmmədov), Hüseyn Ərəblinski (Mikayıl Kərimov), Zülfüqar Hacıbəyov (Yaşar Nuri), Məleykə xanım (Həmidə Ömərova), Hüseynqulu Sarabski (Mikayıl Mirzəyev), Əhməd Ağdamski (İbrahim Əliyev), Şövkət Məmmədova (Maya İsgəndərova), Mirzəağa Əliyev (Şahmar Ələkbərov) kimi tarixi şəxsiyyətlərin obrazlarına da rast gəlirik. Aparıcı rolunu ifa edən Tofiq Mirzəyev film boyu Üzeyir Hacıbəyovu yaxından tanımaqda tamaşaçıya bələdçilik edir.

İki seriyadan ibarət bu rəngli filmin yaradıcı heyəti “...Üzeyir Hacıbəyovun bir bəstəkar kimi formalaşmasını əks etdirməklə kifayətlənməmiş, eləcə də ekranda Azərbaycan milli musiqi və səhnə sənətinin yarıməsrlik panoramını canlandırmağa çalışmışlar. Müəlliflər müxtəlif sənədli kadrlardan məharətlə istifadə edərək tamaşaçıda Üzeyir sənəti haqqında dolğun təsəvvür yarada bilmişlər.

Film 1982-ci il sentyabrın 1-də Mərkəzi Televiziya (Moskva) ilə ilk dəfə nümayiş etdirilmiş, bu nümayiş milli kino sənətimizə verilən yüksək qiymət kimi səslənmişdir” [2, s. 122].

Qeyd etmək yerinə düşər ki, filmin rus dilində olan variantı “Üzeyir Hacıbəyov: Uzun ömrün akkordları”, Azərbaycan dilində olan variantı isə “Üzeyir ömrü” adlanır.

**“Arşın mal alan” və “O olmasın, bu olsun!” operettaları ekranda.** Ü.Hacıbəyovun dünyaşöhrətli operettası olan “Arşın mal alan”ın ilk kino variantı 1916-cı ildə ərsəyə gəlmişdir. “Azərbaycan sovetləşməmişdən beş il əvvəl belçikalı sahibkarlar – Pirone qardaşları Bakıda özlərinin kirayə kontorunu açır, kino istehsalını təşkil edirlər. Şəhərin mərkəzində, Birja küçəsi, 3 nömrəli binada (indiki Ü.Hacıbəyov küçəsi) onların “Filma” Səhmdar Cəmiyyəti yerləşirdi. Cəmiyyət 1915-ci ildə bir neçə bədii filmin istehsalına başlayır və filmlərə quruluş vermək üçün Peterburqdan rejissor B.Svetlovu və operator Q.Lemberqi dəvət edir [2, s. 11].

1913-cü ildən rejissorluq fəaliyyətinə Moskvada başlayan Boris Nikolayeviç Svetlov müxtəlif teatrlarda işləmiş, eyni zamanda aktyor kimi də çıxışlar etmiş, inqilabdan əvvəl 40-a yaxın film çək-

mişdir. O, həm də 1921-ci ildə Petroqradda yaradılmış kinotexnikumun təşkilatçısı sayılır. Bakıya gələn B.Svetlov burada "Neft və milyonlar səltənətində", "Arşın malalan", "Arvad", "Arvadlar ərlərini mənsəbə necə çatdırırlar" kimi bədii filmlərə quruluş vermişdir.

"Arşın malalan" operettasına ilk ekran həyatı verən rejissor çəkilişə artıq o zaman tanınmış səhnə aktyorlarından olan Hüseynqulu Sarabskini (Əsgər), Ələkbər Hüseynzadəni (Soltan bəy), Mirzəağa Əliyevi (Süleyman) və Hənəfi Terequlovu (Vəli) cəlb eləmişdi.

Qadın rollarına aktrisa axtararkən çətin vəziyyətə düşən rejissor Gülçöhrə və Cahan xala (filmin titrində Gülcahan – Ə.Q.) rollarına qadın obrazlarının məşhur ifaçısı Əhməd Ağdamskini və Yunis Nərimanovu, Asya və Telli rollarına isə müvafiq olaraq Aleksandra və Yevgeniya Olenskayaları çəkib.

"Film ilk dəfə 1917-ci il yanvarın 3-də, Bakıdakı "Forum" kinoteatrında nümayiş etdirildi. Film səssiz olduğuna görə onun təsir gücü az idi. Əsər ekran üçün işlənərkən öz gözəlliyini, təravətini və bədii qiymətini xeyli itirmişdi. Buna görə də salonda yerləşdirilmiş xalq çalğı alətlərinin müşaiyətilə operettadan musiqi parçaları çalınır, Cabbar Qaryağdıoğlu və digər xanəndələr operettadan ariyalar ifa edirdilər. Filmin keyfiyyəti Üzeyir bəyi və əsas rollarda çıxış edən aktyorları narazı salmışdı. Buna baxmayaraq tamaşaçılar filmə böyük maraq göstərirdilər" [2, s. 13].

"Arşın mal alan"ın ikinci kino variantı 1937-ci ildə ABŞ-da, ermənilər tərəfindən yaradılıb. Filmə quruluş verən Setraq Vartiyan həm də Əsgər rolunu ifa edib. Digər obrazların iştirakçıları da tamamilə ermənilərdən ibarət olub. Filmdə göstərilir ki, Avropada yaşayan varlı İran taciri Əsgər evə evlənmək üçün qayıdır.

"Rusiya Dövlət Film Fondunun Amerika (ABŞ – Ə.Q.) Film İnstitutunun kataloquna əsaslanaraq verdiyi məlumata görə orada həqiqətən ermənilər "Arşın mal alan" filmini çəkiblər. Həmin film ilk dəfə ekranlara 1937-ci il martın 5-də buraxılıb... "Naşe vremya" jurnalının 2000-ci il tarixli fevral nömrəsində "O, bütün dünyanı fəth edəcək" məqaləsinin müəllifi yazır ki, 1943-cü ildə Tehranda olan Azərbaycan incəsənət xadimlərindən ibarət nümayəndə heyəti Amerikada istehsal edilmiş "Arşın mal alan" bədii filminə baxmış, həmin filmin musiqi və ssenari müəllifinin erməni olduğunu görəndə sonra bu barədə Ü.Hacıbəyova məlumat vermişdir. Bəstəkar bu xəbəri eşidib Stalinə məktub yazmış, müəllif hüquqlarının qorunmasında köməklik göstərməsini xahiş etmişdir. "Xalqlar atası" bu məsələ ilə əlaqədar Ü.Hacıbəyova yazmışdır: "Əziz Üzeyir Hacıbəyov! Bəlkə Siz öz filminizi çəkəsiniz və bütün plagiatlara birdən cavab verəsiniz?!"

Bundan sonra Stalin SSRİ Dövlət Kinematoqrafiya Komitəsinin sədri Bolşakovu çağırıb deyib ki, "Arşın mal alan"ı yubanmadan ekranlaşdırmaq, filmin xaricdə geniş reklamını təşkil etmək lazımdır. Qoy bütün dünya "Arşın mal alan"ın əsl müəllifinin kim olduğunu bilsin.

... "Arşın mal alan"ın qarşısında yaşıl işıq yandı. Çətinliklərin və problemlərin həllinə şəxsən Mircəfər Bağırov özü rəhbərlik edirdi, qalan bütün yaradıcı məsələlərə yalnız Ü.Hacıbəyov cavab verirdi" [2, s. 24].

Filmin istehsalına 1941-ci ilin yayından başlamaq nəzərdə tutulsa da, Böyük Vətən Müharibəsinin başlanması çəkilişləri təxirə salır. Nəhayət, 1943-cü ilin payızından "Arşın mal alan" filmi üzərində işə başlanılır, çəkilişlərə isə 1944-cü ilin ortalarından start verilir.

Filmin ssenari müəllifi Sabit Rəhman, quruluşçu rejissorları Rza Təhmasib və Nikolay Leşşenko, operatorları Əlisəttar Atakişiyev və Muxtar Dadaşov, rəssamı Yuri Şvets, musiqi redaktoru Niyazi idi. Rollarda Rəşid Behbudov (Əsgər), Leyla Cavanşirova – Bədirbəyli (Gülçöhrə), Ələkbər Hüseynzadə (Soltan bəy), İsmayıl Əfəndiyev (Süleyman), Münəvvər Kələntərli (Cahan), Lütfəli Abdullayev (Vəli), Rəhilə Mustafayeva (Asya), Fatma Mehrəliyeva (Telli), Mirzəağa Əliyev (Məşhədi İbad) çəkilmişlər.

Tanınmış teatrşünas Tamilla Təhmasib atasının həyat və yaradıcılıq yoluna həsr etdiyi monoqrafiyasında yazır: "Arşın mal alan" filminin çəkili dövründə Əsgər bəyin evini və Soltan bəyin bağını göstərmək üçün natura seçərkən Yemelyanovun (o illərdə respublikanın xalq dövlət təh-

lükəsizliyi komissarı – Ə.Q.) Şüvəlandakı bağını münasib bilərək rejissor (R.Təhmasib – Ə.Q.) ona müraciət edir. Komissar rejissoru kabinetində qəbul edir və bağında çəkiliş üçün razılıq verir. Ancaq xudahafizləşib təşəkkür hissilə kabinetdən çıxan rejissoru "Film alınmasa, özündən küs!" – deyə şəhadət barmağını silkələyərək hədələmişdi. İlahi! Rejissorun nə vəziyyətə düşdüyünü, bütün müddət ərzində ümumi əzab və əziyyətdən əlavə nələr çəkdiyini təsəvvür etmək çətin deyil" [3, s. 188].

1945-ci il, 18 sentyabr "Arşın mal alan" filminin təntənəli təqdimatı – premyerası "Krasnı Vostok" (indiki "Azərbaycan") kinoteatrında olmuşdur. Kino veteranı, jurnalist Məmməd Babayev həmin günün təəssüratını mətbuatda belə bölüşmüşdü: "... Premyera yaxşı yadımdadır. Kassaların qabağında uzun növbələr yaranmışdı, salonda iynə atsaydın yerə düşməzdi: keçidlərdə, divar diblərində adamlar durmuşdu. Bir çoxları isə ekranın önündə bardaş qurub oturmuşdu. Salonda ardı-arası kəsilməyən gülüş səsi, sürəkli alqışlar eşidilirdi. Bu, filmin yaradıcılarının əməyinə verilən ən böyük qiymət idi. Kinoteatrdan çıxanların üzündən sevinc yağırdı" [5].

Görkəmli ədəbiyyatşünas, professor Əziz Şərif də film haqqındakı resenziyasını mərkəzi mətbuatda oxucularla bölüşmüşdü: "Cəsarətlə demək olar ki, Azərbaycan klassik dramaturgiyasında "Arşın malalan" əsəri ən nəşəli, nikbin, həyati bir dram əsəridir... Dəfələrlə səhnədə görünmüş, sözləri, nəğmələri, musiqisi geniş kütlə tərəfindən əzbərlənmiş bir əsəri kino dilinə çevirmək təşəbbüsü nə qədər cazibəli və maraqlıdırsa, bir o qədər də məsul və çətindir, çünki bu təşəbbüsdə olan sənətkar yeni vasitələr tapmaq, teatr sənətini təkrar etməmək və əsas etibarı ilə tamamilə yeni bir sənət əsəri yaratmaq məcburiyyətindədir... "Arşın malalan" musiqili bədii filmi incəsənət tariximizə parlaq bir müvəffəqiyyət kimi daxil olacaq və gələcəkdə bu kimi və bundan daha yüksək kino əsərlərimizin əsasını təşkil edəcəkdir. Bu birinci təşəbbüsün belə gözəl nəticələnməsi böyük ümidlər verir [6].

"Arşın malalan" filmi 1946-cı ildə Stalin mükafatına (sonralar SSRİ Dövlət mükafatı) layiq görüldü. Rejissorlar R.Təhmasib və N.Leşşenko, aktyorlar Ə.Hüseynzadə, M.Kələntərli, L.Abdullayev, L.Cavanşirova (Bədirbəyli), R.Behbudov bu mükafatla təltif olundular. Mərkəzi mətbuat yazırdı: ""Arşın malalan" filminin Stalin mükafatına layiq olması Azərbaycan kinematoqrafiyasının bayramı və təntənəsidir..." [7].

86 dilə tərcümə olunan film sovet dövründə 136 ölkədə nümayiş etdirilmişdir. 2006-cı ildə filmin Moskva Film Fondundakı nüsxəsi Bakıya gətirilmiş və Azərbaycan dilində olan variantı bərpa olunmuş, 2013-cü ildə isə film Heydər Əliyev Fondunun təşəbbüsü ilə rənglənib və "Arşın mal alan"ın bu variantı 2015-ci ildə ABŞ-da – Hollivudda 650 nəfər tamaşaçıya nümayiş etdirilib. Bu tədbir Ü.Hacıbəyovun 130, R.Behbudovun 100, "Arşın mal alan" filminin 70-illiyinə həsr olunmuşdu.

1965-ci ildə Üzeyir Hacıbəyovun 80 illik yubileyi münasibətilə "Arşın mal alan" filminə yeni ekran həyatı vermək qərara alınır. Elə həmin ildə C.Cabbarlı adına "Azərbaycanfilm" Kinostudiyasında rəngli və genişekranlı variantda çəkilən filmin istehsalı başa çatdırılır. Filmi rejissor Tofiq Tağızadə Muxtar Dadaşovla birgə yazdığı ssenari əsasında çəkmişdir. Yeni filmdə "Arşın mal alan"ın musiqisi bəstəkar Fikrət Əmirov tərəfindən yeni redaksiyada işlənmişdi. Baş operator İlya Minkovetski və quruluşçu rəssam Elbəy Rzaquliyev bir sıra səhnələrdə dekorasiyadan çıxıb Azərbaycanın gözəl guşələrində – Göy göldə, Qubada çəkilişlər aparmışlar.

Quruluşçu rejissor Tofiq Tağızadə "Arşın mal alan"ın yeni variantı ilə əlaqədar müsahibəsində demişdi: "Əlbəttə, məsələ təkcə lenti "təzələməkdən" ibarət deyildir. Hətta ona görə yox ki, kinonun imkanları çox genişlənmişdir və biz geniş ekrandan, rəngdən istifadə edəcəyik. Bizim əsas vəzifəmiz Ü.Hacıbəyovun fikirlərinə daha yaxından yanaşmaq, iki mövzunu – təmiz, ülvi məhəbbəti və Şərq qadınlarının faciəsini göstərən əsərin ideyalarını daha dərindən açmaqdan ibarətdir" [4].

Bu filmdə rolları Həsən Məmmədov (Əsgər), Leyla Şıxlinskaya (Gülçöhrə), Ağadadaş Qurbanov (Soltan bəy), Nəcibə Məlikova (Cahan), Murad Yegizarov (Süleyman), Tələt Rəhmanov (Vəli), Səfurə İbrahimova (Telli) ifa etmişlər. Lakin çəkilişin sonunda, toy səhnəsinin lentə alınmasından bir neçə gün əvvəl, mehmanxanada balkonun uçması nəticəsində faciəli surətdə dünyasını dəyişən Ağadadaş Qurbanovun yerinə toyda Soltan bəyi başqa aktyor ifa edib.

"Arşın mal alan" kinokomediyası 1967-ci ildə Tbilisidə keçirilən I Zaqafqaziya və Ukrayna respublikaları filmlərinin "Prometey-67" zona kinofestivalında ən yaxşı musiqili filmə görə Gürcüstan Bəstəkarlar İttifaqının prizinə layiq görülmüşdür" [2, s. 86].

1966-cı ildə rejissor T.Tağızadə, aktrisalar L.Şıxlinskaya və S.İbrahimova SSRİ kinematoqrafçıları nümayəndə heyətinin tərkibində İordaniya, İraq və Suriyada keçirilən sovet filmləri həftəsində iştirak etmişlər. Nümayəndə heyətinin festivala təqdim etdiyi 5 bədii filmdən biri "Arşın malalan" olmuşdur. "T.Tağızadə danışırdı ki, kino həftəsi günlərində bizim filmimiz dərhal müvəffəqiyyət qazandı və hər yerdə – Omanda da, Bağdadda da, Dəməşqdə də kinoteatrların sahibləri bayram proqramının uzadılması üçün bizi dilə tuturdular. Məsələn, İordaniyada çıxan "Həyat" qəzeti "Arşın mal alan"ın ilk tamaşasından sonra yazmışdı: "Azərbaycan xalq komediyası ilə bu görüş xoş bir əlamətdir. O, uzaq, lakin qardaş xalqın incəsənətilə yeni görüşlər vəd edir..." Məhz Azərbaycan kinokomediyasının bu qədər şöhrət qazanmasının nəticəsi idi ki, bizi dərhal televiziyada çıxış etməyə, tələbə klubuna, xalq dram teatrına, kinostudiyaya getməyə dəvət edirdilər. Bizim bir həftə üçün nəzərdə tutulan proqramımız 30 günlüyə çevrildi..." [2, s. 87].

1965-ci ildə çəkilən "Arşın mal alan" 1945-ci ildəkinə nisbətən bədii cəhəttdən yüksək alınmasa da, həm Azərbaycanda, həm də xarici ölkələrdə tamaşaçıların diqqət və marağına səbəb olmuş, kinoteatrlarda və telekanallarda özünə daimi yer tutmuşdur. Buna əsas səbəb isə Üzeyir bəyin ölməz musiqisi və dramaturgiyasıdır.

**"O olmasın, bu olsun!"** operettası təkcə Azərbaycanda deyil, həm də keçmiş SSRİ respublikalarında, eyni zamanda Yaxın və Orta Şərqdə geniş yayılmış məşhur bir klassik əsərdir.

"Arşın mal alan" kimi "O olmasın, bu olsun!" da bir neçə dəfə kino işçilərinin diqqətini cəlb etmişdir.

"Birinci dəfə əsər 1918-ci ildə rus sahibkarı A.Xanjonkovun Yaltadakı kinofabrikində lentə alınmışdır. Onun xatirələrindən belə aydın olur ki, əsəri ekranlaşdıranların əsas məqsədi çoxlu gəlir əldə etmək idi. A.Xanjonkov yazır: "Kinofabrikin Rostov Şöbəsinin direktoru Y.Uzunyan yaz günlərinin birində çoxlu pulla yanıma gəlib film çəkmək istədiyini bildirdi, bizim truppanın qüvvəsindən və Yalta atelyesinin texniki personajından istifadə olunmasını xahiş etdi. O, bütün xərcləri öz üzərinə götürdü, çünki filmin nümayişindən əldə olunan gəlir ona qalacaqdı. Mən razılıq verdim. Şərq xalqları arasında populyar olan "Ol masun, bu alsun" (xatirədə belə yazılmışdır. Mötərizədə isə filmin adı rusca bu cür tərcümə olunmuşdur: "Ne ta, tak druqaya" – A.K.) teatr komediyasına quruluş vermək qərara alındı. Ssenarini Uzunyan Papazyanla birlikdə ildırım sürətilə hazırladılar... Bir neçə gün ərzində quruda və dənizdə çəkilişlər qurtardı" [2, s. 90].

Bu sitatdan göründüyü kimi yenə də erməni kino işbazları Üzeyir Hacıbəyov yaradıcılığından yararlanaraq onun operettasının tam mətnindən ssenari kimi istifadə etməklə qısa müddət ərzində kommersiya məqsədli bir film yaratmışdılar. Sonra isə bəstəkardan ehtiyat edərək onlar filmlərinin Azərbaycanda nümayişini lazım bilməmişdilər. Buna baxmayaraq "Bakinski raboçi" qəzetinin 1923-cü il nömrələrindən birində bir neçə il əvvəl Yaltada çəkilmiş "O olmasın, bu olsun!" filmi barədə məlumat dərc olunmuşdur.

Bu "ilk addım"dan 38 il sonra Azərbaycan Kinematoqrafçıları Bakı Kinostudiyasında eyniadlı musiqili filmə həyat verərək dahi bəstəkarımızın adına layiq bir sənət əsəri yaratdılar. Quruluşçu rejissor Hüseyn Seyidzadə filmin çəkilişi ərəfəsində keçirdiyi hissləri belə xatırlayırdı: "Gec-tez dahi bəstəkarın əsərlərindən birinə mütləq müraciət etməli idim. Amma bu komediyanı ekrana çıxarmaq təklif olunanda Allah bilir sevincimdən nə hala düşdüm. Birincisi, çoxdankı arzum reallaşacaqdı. İkincisi, kinorejissor kimi buna qədər başqa filmlərdə assistent, ikinci rejissor olmuş, yaxud başqa rejissorla birgə işləmişdim. Ona görə də özümü təsdiq etməli idim. Bundan ötrü isə başqa belə gözəl təklif ola bilməzdi. Üstəlik, komediya ustası, gözəl dramaturqumuz Sabit Rəhman bəstəkarın operettasını kino dilinə çevirmiş, maraqlı kinossenari yazmışdı. Mənimsə qarşımda çox məsul vəzifə dururdu: klassik səhnə əsərinin özünəməxsus üslubunu pozmamaq, əsərə müasir baxımdan

yanaşmaq, onu ekranda canlandırmaq üçün müvafiq kinematoqrafik vasitələr axtarıb tapmaq. Ən əsası, şarja yol verməmək, hər cür şitlik və bayağılıqdan uzaq ciddi film yaratmaq!...” [1, s. 304].

H.Seyidzadə Estoniyada, “Tallinfilm” Kinostudiyasında işləyən Əlisəttar Atakişiyevi filmə quruluşçu operator, Moskvadan Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun diplomantı Nadir Zeynalovu isə quruluşçu rəssam kimi dəvət etdi. Ə.Atakişiyev eyni zamanda geyim üzrə rəssam vəzifəsini də yerinə yetirdi. Bakıdakı 190 nömrəli məktəbin IX sinif şagirdi Tamara Gözəlovanı Gülnaz roluna seçməsisə quruluşçu rejissorun ən riskli addımı hesab olunurdu. Sonra H.Seyidzadə Dövlət Akademik Dram Teatrına gedib aktyor seçimi üçün Adil İsgəndərova müraciət edəndə o, bütün truppanı kabinetinə yığaraq demişdi ki, biz kollektiv şəkildə filmin çəkilişində iştirak edəcəyik. Lazım olsa, epizodik rollarda belə oynayacağıq.

Belə də oldu Adil müəllim bazarda Qoçu Əsgərə qarşı dava salan Qoçu Balaqədeş, Ağasadıq Gəraybəli Rüstəm bəy, Mustafa Mərdanov Həsən bəy, İsmayıl Osmanlı Rza bəy, Möhsün Sənani Qoçu Əsgər, Barat Şəkinskaya Sənəm rollarına təsdiq olundular. Teatrın gənc aktyorları isə Sərvərin dostlarına və digər epizodik rollara təyin olundular.

Məşhədi İbadı isə Mirzəağa Əliyev oynamalı idi. Lakin görkəmli aktyorun qəfil vəfatı bu rola Dövlət Gənc Tamaşaçılar Teatrından Əliağa Ağayevin dəvət olunması ilə və böyük uğurla nəticələndi. H.Seyidzadə filmə əsasən teatr aktyorlarını toplamasına baxmayaraq kinoda təcrübə qazanmış İsmayıl Əfəndiyev (Həsənqulu bəy) və Arif Mirzəquliyevdən (Sərvər) arxayın idi. Hambal roluna da DGT Teatrından Əhməd Əhmədov dəvət olunmuşdu.

Filmdə Cəlil Məmmədquluzadənin (Rza Əfqanlı) ətrafında digər tarixi şəxsiyyətlərə –M.Ə.Sabirə (Sadıq Saleh), Əzim Əzimzadəyə (Həsənağa Salayev), Hüseyn Ərəblinskiyə (Ramiz Mustafayev), Əbdürrəhim bəy Haqverdiyevə (Nüsrət Fətullayev) və hətta Üzeyir bəyin özünə də rast gəlirik. Maraqlıdır ki, Ü.Hacıbəyov obrazını rejissor Hüseyn Seyidzadə özü canlandırıb. Lakin o, adını epizodik rolları ifa edənlərin titrinə daxil etməyib.

Bundan başqa burada qonaqlıq və toy məclislərində məşhur müğənni və musiqiçilər də – Xan Şuşinski (Xanəndə), Tükəzban İsmayılova (Xanəndə), Əminə Dilbazi (Rəqqasə), Bəhram Mansurov (Tarzən), Tələt Bakıxanov (Kamançaçı), Kübra Əbilova (Qarmonçalan) çəkilmişlər. Digər epizodik rollarda Müxlis Cənizadəni, Lüfü Məmmədbəyovu, Əfrasiyab Məmmədovu, Faiq Mustafayevi, Osman Hacıbəyovu (Sərvərin dostları), Lütfəli Abdullayevi (Balaoğlan), Yavər Kələntərlini (Yengə), Ağahüseyn Cavadovu, Yusif Yulduzu, Hüseyağa Sadıqovu, Əliheydər Həsənzadəni (bəylər), Mollaağa Bəbirlini (HMəşhədi Qəzənfər), Süleyman Tağızadəni, Cabbar Əliyevi (qoçular), Məmmədsadıq Nuriyevi (Bazardakı adam) görürük.

Filmə ilk baxış 1957-ci il iyulun 4-də olmuş, premyerası isə 1958-ci il yanvarın 27-də Moskvada baş tutmuşdur. Elə həmin il Daşkənddə keçirilən Asiya və Afrika ölkələrinin Beynəlxalq Kinofestivalında “O olmasın, bu olsun!” yüksək qiymət alaraq mükafata layiq görülmüşdür.

Bundan sonra film SSRİ hüdudlarından kənarda 50-yə yaxın ölkədə nümayiş etdirilmişdir. Bu filmə heyranlıqla baxan Rac Kapur H.Seyidzadəni filmlər çəkmək üçün Hindistana dəvət etmişdi.

“O olmasın, bu olsun!” Azərbaycan tamaşaçısı tərəfindən hər zaman sevilib, sevilir və gələcək nəsillər tərəfindən də seviləcək. İlk rəngli bədii filmimiz olan bu ölməz kino şedevrimiz mükəmməl və əvəzolunmaz yaradıcı heyətilə yanaşı, Üzeyir musiqisindən qaynaqlandığından daim zövqümüzü oxşamaqda davam edir.

**Nəticə.** Yekun olaraq onu vurğulamaq lazımdır ki, dahi Üzeyir Hacıbəyov bütün varlığını, ömrünü və çoxşaxəli fəaliyyətini xalqımıza xidmətə, Vətənimizin mədəni yüksəlişinə həsr etmişdir. Bu gün də böyük sənətkarımız nəinki opera və operettalarında, digər musiqi əsərlərində, eyni zamanda özünün haqqında çəkilmiş sənədli xronikalarda və operettaları əsasında ərsəyə gəlmiş kinokomediyalarda daim bizlərlə görüşə gəlir. Bu filmlər insanlara bol sevinc, nikbin əhval-ruhiyyə, xoş ovqat, estetik zövq bəxş edir.

İlhamlı və zəngin yaradıcılığa malik olan Üzeyir Hacıbəyovun irsi demək olar ki, ümumdünya mədəniyyətinin sərvətidir. Bu baxımdan da bu dahi şəxsiyyət yalnız Azərbaycan xalqının deyil, eləcə də türk dünyasının və Yaxın Şərqin, həmçinin bütün bəşəriyyətin övladıdır.

"Üzeyir ömrü və yaradıcılığı həmişəyaşardır" ifadəsi təsadüfi deyil. Xalqımız hər bir dövrdə özünün bu fenomenal oğlu ilə qürrələnmiş, fəxr etmişdir. Bu fəxarət hissi bu gün də olduğu kimi gələcəkdə də davam edəcəkdir.

Mədəniyyətimizin ayrılmaz hissəsi və yaraşığı olan Üzeyir Hacıbəyov sənətini bundan sonra da gənclərə, o cümlədən gələcək nəsillərə daha yaxından tanıtmaq naminə ədəbiyyat və incəsənət xadimləri, alimlər, kinematoqrafçılar bu dahinin dolğun həyatına və zəngin yaradıcılığına təkrar-təkrar müraciət edəcəklər.

## ƏDƏBİYYAT

1. Əbdülrəhmanlı N. Azərbaycan kino sənəti tarixi: 4 cilddə. II c., 1936-1960-cı illər, Bakı: Qanun, 2020, 592 s.
2. Kazımadə A. Üzeyir Hacıbəyov və kino. Bakı: Nağıl evi, 2005, 128 s.
3. Təhmasib T. Rza Təhmasib. Bakı: MBM, 2005, 272 s.
4. "Bakı" qəz., 1966, 24 fevral.
5. "Ədəbiyyat və incəsənət" qəz., 1945, 16 oktaybr.
6. "Kommunist" qəz., 1945, 21 oktyabr.
7. "Kommunist" qəz., 1946, 29 iyun.

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: elekberqasimov@mail.ru***

**Alakbar Gasymov**

## SCREEN EMBODIMENT OF UZEYIR'S LIFE AND OPERETTAS

The article examines films that reflect the life and creative path of the founder of Azerbaijani professional music, the great composer, playwright, musicologist, conductor, publicist, teacher, public figure, and academician Uzeyir bey Hajibeyli, as well as screen works based on his world-famous operettas. The feature documentary film "The Life of Uzeyir" and its creative team are described in detail. Documentary films dedicated to the great personality, filmed in different years, are also examined and presented. In addition, detailed information is given about the screen fate of the operetta "Arshin Mal Alan," which was repeatedly addressed by filmmakers, directors, cameramen, production designers, actors, and singers who performed arias and songs from these films. Also shown are moments from the filming process of the movie "If Not That One, Then This One!", and the activities of the creative team are widely covered.

**Keywords:** *Uzeyir bey Hajibeyli musical comedy, film, director, cameraman, artist, actor, singer.*

**Алекбер Гасымов**

## ЭКРАННОЕ ВОПЛОЩЕНИЕ ЖИЗНИ И ОПЕРЕТТ УЗЕИРА

В статье рассматриваются фильмы, отражающие жизненный и творческий путь основоположника азербайджанской профессиональной музыки, великого композитора, драматурга,

музыковеда, дирижёра, публициста, педагога, общественного деятеля, академика Узеира бея Гаджибейли, а также экранные произведения по мотивам его всемирно известных оперетт.

Подробно рассказывается о художественно-документальном фильме «Жизнь Узеира» и его творческой группе. Также рассматриваются и представляются документальные фильмы, посвящённые великой личности, снятые в разные годы.

Кроме того, даются подробные сведения об экранной судьбе оперетты «Аршин мал алан», к которой неоднократно обращались кинематографисты, режиссёры-постановщики, операторы-постановщики, художники-постановщики, актёры, певцы, исполнившие арии и песни из этих фильмов.

Также показаны моменты съёмочного процесса фильма «Не та, так эта!», и широко освещается деятельность творческого коллектива.

**Ключевые слова:** *Узеир бей Гаджибейли, музыкальная комедия, фильм, режиссёр, оператор, художник, актёр, певец.*

*(AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 10.06.2025**
**Son variant 07.07.2025**